*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 22 iyun 2018-ci il № 47 (2263) | Qiyməti 25 qəpik


**1918 Azərbaycan Ordusu - 100 2018**

Ali Baş Komandan İlham ƏLİYEV:

## Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır




100 il əvvəl Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynayan milli ordu quruculuğu siyasətinin əsasının qoyulması xalqa göstərilən ən böyük xidmətlərdən sayılır. Dövrün ağır şərtləri daxilində dövlətin və onun nizami ordusunun formalaşdırılması xalqımıza və milli-mənəvi dəyərlərimizə verilən qiymətin təzahür forması idi.

1918-ci il iyunun 26-da ilk hərbi hissənin - əlahiddə korpusun yaradılması haqqında qərar Demokratik Cümhuriyyətin öz ordusunu formalaşdırması sahəsində israrlı olduğunu ortaya qoydu və Azərbaycanda ordu quruculuğu istiqamətində əsaslı nəticələr əldə olunmasına səbəb oldu.


**(Ardı 8-ci səhifədə)**

# "Ordumuz hər an düşmən təxribatının qarşısını almağa hazır olmalıdır"

*İyunun 16-da Müdafiə Nazirliyində general-polkovnik Zakir Həsənovun rəhbərliyi və kollegiya üzvlərinin iştirakı ilə 2018-ci ilin qış tədris dövrünün yekunlarına dair geniş tərkibdə iclas keçirilib.*



Tədbirdə Müdafiə nazirinin müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə, müstəqil xidmət və şöbə rəisləri, birlik, birləşmə komandirləri, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin rəhbərləri və digər vəzifəli şəxslər iştirak ediblər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kollegiya iclasında hesabat dövründə ordu quruculuğu sahəsində görülən işlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı məruzə dinlənilib, son dövrlərdə həyata keçirilən islahatlar, qoşunların döyüş hazırlığının vəziyyəti, xidməti və digər məsələlər müzakirə olunub.

Müdafiə naziri 2018-ci ilin qış tədris dövründə Azərbaycan Ordusunun hazırlığının nəticələri və yay tədris dövründə qarşıda duran vəzifələr haqqında geniş məruzə ilə çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edən Müdafiə naziri Ali Baş Komandanın rəhbərliyi ilə son illər ərzində əldə edilən nailiyyətlərdən danışıb.

General-polkovnik Zakir Həsənov cari ildə görülən tədbirlərin təhlilini apararaq döyüş hazırlığı, şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələlərini, eləcə də düşmənin istənilən təxribatının qarşısının alınması və düşmənə layiqli zərbə endirilməsi məqsədilə 2018-ci ilin yay tədris dövründə qarşıda duran əsas vəzifələri diqqətə çatdırıb.

Müdafiə naziri Silahlı Qüvvələrin 100 illiyi ilə əlaqədar keçiriləcək tədbirlərə hazırlıqla bağlı səlahiyyətli şəxslərə müvafiq tapşırıqlar verib.

Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# "Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrdə həyata keçirdiyi islahatlar uğurla davam etdirilir"



*İyunun 20-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi poliqonda müxtəlif bölmələr ilə keçirilən səhra məşğələlərinin gedişini izləyib. Təlim məşqlərin sonunda nazir kütləvi informasiya vasitələrinin nümayəndələrinin suallarını cavablandırıb.*

Nazir sualları cavablandırarkən qeyd edib ki, ordumuzda islahatlar davam edir. "Əsas istiqamətlərdən biri də ordunu tam müasir, yüksək dağıdıcı gücə malik və düşməni dəqiqliklə məhv edə bilən silahlarla təchiz etməkdir. Azərbaycan Ordusuna ən müasir silahlar alınıb və bu proses davam edir. Yaxın illərdə bu istiqamətdə görülən işlər yekunlaşacaq. Bütün döyüş maşınları yenilənib və qalan hissəsi də yüksək səviyyədə modernizasiya edilib. Bilirsiniz ki, ordumuza yeni tanklar alınıb. Digər tanklarımız da hərtərəfli modernizasiyadan keçirilib. Bu tanklar öz funksiyalarını yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Ordumuza yeni piyada döyüş maşınları, zirehli transportyorlar, döyüşlərdə istifadə olunan yeni zirehli maşınlar alınıb. Yeni alınan texnikalarımızı paradda görə biləcəksiniz. Xeyli sayda yeni artilleriya sistemləri alınıb. Onlar ən müasir atəş idarəetmə sistemləri ilə təchiz olunub. Bu sistemlər uzaq məsafədən dəqiqliyi ilə hədəfi məhv etməyə qadirdirlər.

Bu islahatların əsas istiqamətlərindən biri də ordunun idarə olunmasıdır. Dünyada nadir ordular var ki, avtomatlaşdırılmış komanda sistemi ilə təchiz olunub. Bizim bütün qoşun növlərində və mərkəzi idarəetmə sistemində bu iş 90 faiz səviyyəsində qurulub. Planlaşdırırıq ki, yaxın vaxtlarda bu işi yekunlaşdıraq. Biz artıq bu sistemdən istifadə edirik. Nazirliyin rəhbər heyəti, əsas, ehtiyat idarəetmə məntəqəsi, qoşun növləri, Hava Hücumundan Müdafiə Qoşunları da artilleriyanın avtomatlaşdırılmış idarəetmə sistemindən artıq istifadə edir və bu iş yekunlaşır. Biz bütün bunları ümumi idarəetmə məntəqəsinə yerləşdirmişik və ordunu bu ən müasir sistemlə tam şəkildə idarə edirik. Bu, çox böyük islahatdır".

Görüşdə kütləvi informasiya vasitələrinin nümayəndələrinin əsgər ölümləri ilə bağlı məlumatları yayarkən həssas olmalarını tövsiyə edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov vurğulayıb ki, bir əsgər ölümü olanda biz çox sarsıntı keçiririk və hər dəfə hərbi qulluqçularımızın həlak olması faktı baş verəndə ciddi araşdırma aparırıq. "Araşdırmalardan sonra məlum olur ki, əsgər şəhid olub və ya qeyri-döyüş şəraitində həlak olub. Ona görə də mətbuat nümayəndələri hadisə barədə məlumat verməyə tələsməməlidirlər. Gəlin, araşdırmanın nəticəsini gözləyək. Biz heç vaxt əsgər ölümlərini gizlətmirik. Sadəcə, tələsməyə yol vermək olmaz".

Müdafiə naziri hərbi hissələrdə yerinə yetirilən fəaliyyətlər, aparılan uğurlu islahatlar, əldə olunan nailiyyətlər, qarşıda duran vəzifə və tapşırıqlar barədə media nümayəndələrinin suallarını cavablandırarkən Naxçıvanda ordumuzun həyata keçirdiyi uğurlu əməliyyatdan da söz açıb: "Neytral torpaq anlayışı yoxdur. Sahibsiz torpaq da yoxdur. Bu ərazilər bizim torpaqlarımızdır. Ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar ərazi işğaldan azad edildi. Bildirmək istəyirəm ki, Laçına gedən yola artıq ordumuz nəzarət edir. Bu, bizim növbəti uğurumuzdur".

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri səhra məşğələlərinin gedişini izləyib

*İyunun 20-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi poliqonda müxtəlif bölmələr ilə keçirilən səhra məşğələlərinin gedişini izləyib.*

Müdafiə naziri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 3-cü kurs kursantlarının taktiki məşğələlərinin keçirildiyi taktiki qüllədəki tədris sinfinə gəlib.

"Mexanikləşdirilmiş taqım hücumda" mövzusu üzrə məşğələnin keçirilmə planına uyğun olaraq kursantlar taqım və manqa komandirləri rolunda çıxış edərək məşğələ zamanı yaradılmış taktiki vəziyyətə uyğun hərəkət edilər.

Taqım komandiri vəzifəsinə təyin edilmiş kursantlardan biri hücum haqqında əmri taqımın şəxsi heyətinə çatdırdıqdan sonra qarşılıqlı fəaliyyət təşkil edilib və döyüş texnikasında praktiki hərəkətlərə başlanılıb.

Bu mərhələdə mina sahəsinin keçilməsi, döyüş düzülüşünün müxtəlif formalarının tətbiqi, şərti düşmənin aldadılması qaydaları, maskalanma və sair tapşırıqları nəzərdə tutan müasir ümumqoşun döyüşünün taktiki üsulları icra edilib.

Sonra Müdafiə naziri snayperlərin hazırlığı mərkəzinin atış sahəsinə gələrək praktiki atışların təşkili və icrasını müşahidə edib. Təlim nöqtələrində snayperlər hədəfin aşkar edilməsi, atəş mövqeyinin tutulması, maskalanma, sərrast atəşlə hədəfin məhv edilməsi və digər fəaliyyətləri icra edir, həmçinin snayper sənətinin nəzəri əsaslarını öyrənirlər.

Müdafiə naziri motoatıcı, tank və artilleriya bölmələrinin hazırlığını da izləyib. Məşğələlərə cəlb edilmiş şəxsi heyət atəş, taktiki, taktiki-xüsusi hazırlıq, döyüş maşınlarının idarə olunması və digər tapşırıqları yerinə yetirib.

Təlim məşqlərinin sonunda general-polkovnik Zakir Həsənov poliqona dəvət olunmuş kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşüb.

Mətbuat nümayəndələri ilə söhbətində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə xalqımızı təbrik edən Müdafiə naziri Ali Baş Komandan cənab İlham Əliyevin diqqət, qayğısı və rəhbərliyi altında son illər həyata keçirilən kompleks islahatların nəticəsi olaraq bu gün Azərbaycan Ordusunun istənilən döyüş əmrini yerinə yetirməyə tam hazır və qadir olduğunu bildirib.

Müdafiə naziri hərbi hissələrdə yerinə yetirilən fəaliyyətlər, aparılan uğurlu islahatlar, əldə olunan nailiyyətlər, qarşıda duran vəzifə və tapşırıqlar barədə media nümayəndələrinin suallarını da cavablandırıb.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# "Ordumuzun gücünü artıran əsas amillərdən biri də savadlı və bacarıqlı zabitlərin olmasıdır"

## Müdafiə naziri xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin buraxılış mərasimində iştirak etdi

*İyunun 21-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Hərbi Akademiyası və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarının növbəti buraxılış mərasimində iştirak etdi. Müdafiə Nazirliyinin rəhbərliyi hərbi məktəbin ərazisində ucaldılmış ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoydu, dahi tarixi şəxsiyyətin xatirəsi ehtiramla yad olundu.*






Mərasim Ali Hərbi Məktəbin rəisi general-mayor Fizuli Salahovun Müdafiə naziri general-polkovnik Zakir Həsənovu qarşılaması ilə başladı. Ali Hərbi Məktəbin giriş qapısının yanında düzülmüş zabitlərlə görüşən nazir onları salamladı.

Hərbçilərlə yanaşı, məzunların valideynləri, yaxınları və çoxsaylı qonaqların da iştirak etdiyi təntənəli mərasim ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başladı.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestrinin müşayiəti ilə şəxsi heyətin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Toplaşanların həyəcan keçirdikləri, sevinc hissi yaşadıqları gözlərindən oxunur. Bu gün onlar təhsil ocağını bitirib, Azərbaycan Ordusunun sıralarına daxil olmağın sevincini yaşayırlar. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun həmin tədbirdə iştirakı bu sevinci ikiqat artırıb. Sevinc dolu gözlərin kəlmələşməsində "Azərbaycan Ordusunun tamhüquqlu zabitləri sırasına daxil olduq" qürurunu duymaq olur.

Təhsil ocağının sıra meydanında davam edən mərasimdə Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri, Ali Hərbi Məktəbin şəxsi heyəti, veteranlar, məzunların yaxınları, ictimaiyyətin və xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri iştirak edirdilər.

Mərasimdə çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun yaranmasının 100-cü ildönümü münasibəti ilə müdavimləri, veteranları, şəhid ailələrini və valideynləri təbrik etdi.

General-polkovnik Zakir Həsənov bildirdi ki, ümummilli lider Heydər Əliyev siyasətinin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğı nəticəsində Azərbaycan Ordusu sürətlə inkişaf edir. "Bu gün ordu quruculuğu dövlətimizin başçısının diqqət mərkəzindədir. Ordunun döyüş hazırlığı səviyyəsinin artırılması, onun müasir hərbi texnika və vasitələrlə gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Nəticədə bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuzun gücünü artıran əsas amillərdən biri də savadlı və bacarıqlı zabitlərin olmasıdır. Bu gün Azərbaycan Ordusunda peşəkar zabitlərin hazırlanması üçün bütün şərait yaradılıb. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Hərbi Akademiyanın bazası əsaslı təmir olunub, ən müasir avadanlıq, silah və texnika ilə təmin olunub".

General-polkovnik Zakir Həsənov onu da vurğuladı ki, hərbi qulluqçularımız xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. "Aprel döyüşləri və bir müddət əvvəl Naxçıvanda həyata keçirilən əməliyyatlar onu göstərdi ki, ordumuzun döyüş hazırlığı yüksək səviyyədədir. Azərbaycan Ordusunun təhsil sistemi gündən-günə təkmilləşir, inkişaf edir. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil sisteminin təkmilləşdirilməsi üçün aparılan islahatlar mühüm nəticəsini verməkdədir. Bu hərbi məktəblərin tədris, maddi bazası müasir tələblərə cavab verir. Burada Azərbaycan Ordusunun hazırlıqlı, vətənpərvər kadrlarının hazırlanması üçün hər cür şərait yaradılıb. Biz bundan sonra da bütün imkanlardan istifadə edərək Ali Hərbi məktəblərdə təhsil sisteminin təkmilləşdirilməsi işini davam etdirəcəyik. Hərbi təhsil sisteminin daim inkişaf etdirilməsi ordumuzun yüksək ixtisaslı zabit kadrlarla təmin olunmasının qarantıdır".

Müdafiə naziri çıxışında qeyd etdi ki, gənc zabitlər ordumuza yeni nəfəs, yeni ruh, döyüş əzmi gətirməlidirlər: "Düşmən hiss etməlidir ki, siz hər sahədə həmişə ondan üstünsünüz. Vətənə sədaqətiniz, ana torpağa, ailəyə bağlılığınız, xalqımıza və dövlətimizə məhəbbətiniz sonsuzdur. Bu gün Azərbaycanın güclü və sarsılmaz ordusu var. 2016-cı ilin aprelində Azərbaycan Ordusu düşmən təxribatının qarşısını alarkən düşmənə sarsıdıcı zərbələr endirib. Bu, ordumuzun gücünü bir daha nümayiş etdirdi. Aprel döyüşləri nəticəsində işğaldan azad edilən ərazilərimizdə bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcək".

Sonra ali hərbi məktəbi fərqlənmə ilə bitirən məzunlara diplomlar və qiymətli hədiyyələr təqdim olundu. Məktəbi fərqlənmə ilə bitirən məzunlar üzərində ulduz və aypara təsviri olan emblemləri rəmzi yaş kötüklərinə vurdular və bu proseduru Azərbaycan Ordusunun sıralarına daxil olanların ölkəsinə və millətinə xidmət üçün vəzifəni təhvil almalarının bir rəmzi hesab edirəm. Təhvil verənlər veriləcək hər tapşırığı üstün vəzifə anlayışı və Vətən sevgisi ilə yerinə yetirəcək, içdikləri anda daim sadiq qalacaq Vətən andı sayıram. Gənc zabitlər Azərbaycan Ordusunun şərəfli ənənələrini uğurla, böyük məsuliyyətlə yerinə yetirəcək, 2016-cı ilin aprel zəfərini qazanan zabitlərin döyüş və qələbə əzminin davamçıları olacaqlar. Onların hər birinin xidmət amalının Böyük Qələbə olacağına inamımız böyükdür.



Döyüş bayrağı bu ilin məzunları tərəfindən təhvil verildi.

Kursant həyatına son qoyulur, zabit həyatı başlayır...

Göz yaşları göz yaşlarına qovuşur...

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestrinin və kursantların ifasında məktəbin marşı ifa edildi. Kursantlar təntənəli hərbi marşın sədaları altında tribunanın önündən keçdilər. Möhtəşəm keçiddi. Bu keçidi düşmənlərimizə bir mesaj bilirəm - biz gəlirik Mübarizlərin, Samidlərin, Çingizlərin... davamçıları.

İsti yay günüdü... Günəş göyünənginliyində hakimlik etməkdədi. İnsanların başının üstündə parlayan Günəş, Azərbaycan Ali Hərbi Məktəbinin sıra meydanında düzülmüş zabitlərin baxışlarından, ətrafda övladlarının zabit olmaq sevincini bölüşən valideynlərin qəlbindən istilik alır...

Tədbir iştirak edənlərin yaddaşında dərin iz buraxır...

Ötən günlərdən bütün əlamətlərinə görə fərqlənən sevinc dolu bir gün...

Bu gün Böyük Qələbə Günü ilə əvəzlənəndə daha möhtəşəm olacaq!..

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**gizir**
**Elmar ZEYNALOVUNDUR**

1918 Azərbaycan Ordusu - 100 2018

# Qələbə müjdəli səhərə doğru

*Xalqla, dövlətlə, dövlətçiliklə bağlı olan tarixi ehtiramlarla yaşatma istəyi möhtəşəm olur. Belə tədbirlər də tarixləşir... Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən kütləvi tədbirlər yeniyetmələrin, gənclərin, hərbi qulluqçuların vətənpərvərlik duyğularını etibarlı şəkildə formalaşdırır. İstər ssenari, istərsə də rejissura baxımından biri digərini təkrarlamayan belə tədbirlərin hər birini qeyri-rəsmi vətənpərvərlik dərsi adlandırmaq mümkündür (və zəruridir). Tədbirlərin ön xətdə, düşmənlə təmas xəttinə yaxın ərazilərdə keçirilməsi onun mahiyyətinin daha əhatəli dərkini, duyulmasını, qavranılmasını, düşüncələrə təsirini artırır, şübhəsiz.*





Müdafiə Nazirliyi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışının 25-ci ildönümünə və Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunmuş kütləvi vətənpərvərlik bayramı - "Milli Qurtuluşdan Zəfərə doğru" - tədbir iştirakçılarına müqayisəyəgəlməz xoş ovqatlar yaşatdı; zaman anlamında tarixin dünəniylə bu günü milli maraqlar müstəvisində təqdim olundu: 100 il əvvəllə 25 il əvvəlin tarixi-siyasi mahiyyətinin eyni ruhdan rişələndiyi - dövlətçilik olduğu, 100 il əvvəl də, 25 il əvvəl də dövlətçiliyin necə qorunduğu, saxlanıldığı, 98 il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin hansı səbəblərdən, necə ilhaq edildiyi tarixi faktlarla, təhkiyyə və poetik biçimdə təqdim edildi. Böyük ehtiramlarla bir daha xatırladıldı ki, böyük tarixi şəxsiyyətlər ömür payını xalq üçün, dövlət, dövlətçilik üçün yaşayır. Ulu öndər Heydər Əliyev kimi...

27 il əvvəl Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi...

25 il əvvəl Azərbaycanda siyasi qarşıdurmalar, hakimiyyət səriştəsizliyi, separatçılıq, torpaqlarımızı qorumalı olan yerli müdafiə batalyonlarının ambisiyalı fərdlərin iradəsinə xidmət etməsi, bu səbəblərdən respublikamızda vətəndaş müharibəsi təhlükəsi, ... dövlətçiliyimizi labüd iflasa yaxınlaşdırırdı. Onda xalq böyük tarixi şəxsiyyət Heydər Əliyevin Bakıya gəlməsini təkidlə tələb etdi... - dövlətçiliyimizin qurtuluşu üçün, Azərbaycan üçün...

1993-cü ilin 15 iyunu Azərbaycanda Milli Qurtuluş Günü kimi tarixləşdi, tarix kimi yaşadılacaq da...

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin layihəsi, ssenarisi və rejissorluğuyla keçirilən "Milli Qurtuluşdan Zəfərə doğru" teatrlaşdırılmış, kinolaşdırılmış kütləvi vətənpərvərlik bayramı başlamazdan əvvəl Azərbaycan Ordusunun ilk qurucularından olan general-mayor Cavad bəy və polkovnik Rüstəm bəy Şıxlinskilərin yaşadığı evə vurulan xatirə lövhəsinin açılışı oldu. Bu, tarixi keçmişə ehtiram olmaqla, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi ilə əlaqədar sərəncamının yerinə yetirilməsi baxımından da dəyərləndirilməlidir.

Xatirə lövhəsinin açılışında Abdulla Qurbani onu da bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk general rütbəsi almış Süleyman Əfəndiyevin də adının əbədiləşdirilməsi istiqamətində konkret tədbirlər görüləcəkdir. Toplaşanlar bu informasiyanı "Xalq üçün, dövlət üçün yaşayanlar unudulmur" kimi qarşıladı; ehtiramdan rişələnən hər informasiya sərrafına könül xoşluğu verdi...

....Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı Azərbaycan Xalq Cümhuriyyəti ordusunun süvarilərinin və piyadalarının müşayiətiylə meydana gətirildi. 100 ilin ləngəriylə gətirildi, 100 il sevgilərlə, ehtiramlarla yaşadılan bayraq müasir Azərbaycanın dövlət bayrağıyla yanaşı, o qədər əzəmətlə dalğalanırdı ki! Bu əzəmətli görüntü "Milli Qurtuluşdan Zəfərə doğru" kütləvi vətənpərvərlik bayramının qüdrətidi...

General-mayor Cavad bəy Şıxlinski kim olub? - Azərbaycan Xalq Cümhuriyyətində 1-ci diviziyanın, 1919-cu ildə 1-ci piyada diviziyasının komandiri, Gəncə qarnizonunun rəisi, Zəngəzurda erməni-daşnak birləşmələrinə qarşı aparılan hərbi əməliyyatların komandiri, 1920-ci ildə Gəncə üsyanının təşkilatçılarından biri.

Gəncə üsyanı amansızlıqla yatırıldıqdan sonra məsləkdaşları yaralanmış general Cavad bəy Şıxlinskini Tiflisə qaçırırlar. Tiflisdən İrana keçən general az sonra Ərdəbil qarnizonunun rəisi təyin olunur. Bolşevik təqibləri burada da davam etdiyindən Türkiyəyə keçir...

İranda da, Türkiyədə də könlü Azərbaycandan iraq olmayıb. Qürbət ünlü generalın qəlbini sıxdıqca sıxıb. Dərya səbriylə Vətənə qayıdacağı günün intizarıyla yaşayıb. İndi Vətəndədi - “Milli Qurtuluşdan Zəfərə doğru” kütləvi vətənpərvərlik tədbirində. Bu, ruhun cana qayıdışı misallı qayıdışdı.

Xatirə lövhəsi ehtiramın nişanəsidi. Bu nişanəni ruhun cana qayıdışı bilmək suç deyil. Həm də belə bir gündə - Milli Qurtuluş Günündə, məmləkətin "Milli Qurtuluşdan Zəfərə doğru" - dediyi bir gündə.

Polkovnik Rüstəm bəy Şıxlinski kim olub? - Tiflisdə Kadet korpusunda, Peterburqda Mixaylov Topçuluq Məktəbində təhsil almışdı. Birinci Dünya müharibəsində tatar polkunda xidmət etmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunda böyük xidmətləri olmuşdu. 1918-ci ildə Ağdamda onun rəhbərliyiylə topçu hissəsi təşkil edilmişdi...

1920-ci ildə dövlətçiliyimizin qorunması naminə Gəncə üsyanının təşkilatçılarından biri də polkovnik Rüstəm bəy Şıxlinski olub. Həmin il güllələnib...

Polkovnik Rüstəm bəy Şıxlinskinin nəvəsi polkovnik Rüstəm Şıxlinski Cümhuriyyət ordusunun ünlü zabitlərinə bu ehtirama görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, tədbirin təşkilatçılarına minnətdarlığını bildirdi...

Xalq şairi Səməd Vurğunun bir misrasını xatırlayıram: borcumuzdu bu ehtiram...

Aparıcıların (Abdulla Qurbani, Pərvanə Məmmədova) səsləndirdiyi fikirlər toplaşanları 25 il əvvəlin siyasi mühitinə apanmışdı. Qaşları çatılan da varıydı, yumruqları düyünlənən də. Hamı xalqın o vaxtkı qətiyyətini qurtuluşun başlanğıcı, sözsüz baxışlardan oxunan bu şükranlığı bayramın könül xoşluğunun səyyarəsi bilirdi. Və hamı bir daha əmin olurdu ki, böyük tarixi şəxsiyyətlər tarixin axarını xalqının, dövlətinin mənafeyinə istiqamətləndirməyə qadirdir. Ulu öndər Heydər Əliyev kimi. Bu qənaət "Milli Qurtuluşdan Zəfərə doğru" kütləvi vətənpərvərlik bayramının qüdrətidi, ssenarinin, rejissuranın qüdrətidi...



Qurtuluş günündən sonra yaranmış milli qarşıdurma - vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı...

Qurtuluş günündən sonra respublikada siyasi sabitlik yarandı...

Qurtuluş günündən sonra yerli özünümüdafiə batalyonları ləğv edildi, orduda vahid komandanlıq yaradıldı, ordumuzun nizami ordu kimi formalaşmasının əsası qoyuldu...

Qurtuluş günündən sonra atəşkəs imzalandı, ordu quruculuğunun elmi əsaslarla formalaşdırılması üçün olduqca gərəkli zəmin yarandı...

Qurtuluş günündən sonra respublikamızın iqtisadi inkişafını təmin edəcək "Əsrin müqaviləsi" imzalandı...

Qurtuluş günündən sonra istər xalqın, istərsə də ordunun şəxsi heyətinin qələbəyə inamını qaytaran, əsgər və zabitlərin döyüş ruhunu kükrədən Horadiz əməliyyatı keçirildi, olduqca gərəkli qələbə qazanıldı...

Aparıcıların hər kəlməsi Qurtuluş gününün mahiyyətinin işığına dönür, hər kəlmədə Ulu Öndərə səmimi ehtiram duyulur. Bu ehtiram, bu məhəbbət kəlmə-kəlmə toplaşanların düşüncələrinə hopur; bu kütləvi vətənpərvərlik bayramı məhz bu prosesin bayramıdı...

Yadımdadır, 1993-cü ilin mayında Faxralıdaydım. Müəllimlərimlə kəlmələşirdik. Təbii ki, Azərbaycandan, Bakıdan, Dağlıq Qarabağdan danışırdıq. Qara müəllim "Heydər Əliyev gəlməsə, Azərbaycan bu vəziyyətdən xilas ola bilməyəcək..." - demişdi. Məmmədəli müəllim, Həmid müəllim, İmdad müəllim,... onun sözlərinə söykək olmuşdular. İyunun 15-də xalqın ovqatıyla bərabər müəllimlərimin işıqlı, heysiyyətli düşüncələrinin ovqatını da yenidən yaşamışdım. Könüldən-könülə görünən yollara görə, yaxın qəriblikdə - Borçalıda yaşayan ziyalıların Azərbaycanı bunca sevgisinə görə, belə müəllimlərin şagirdi olduğuma görə; "Milli Qurtuluşdan Zəfərə doğru" kütləvi vətənpərvərlik bayramı dünəndən bu günə düşən, bu gündən sabahlara düşəcək ehtiram işığı kimi izlənildi, on mindən çox tamaşaçının, on mindən çox tamaşaçının timsalında məmləkətin vətənsevərlərinin düşüncələrini, beləcə, yaxın vaxtlarda yaşayacağımız zəfərin sevincinə kökləd...

(Ardı 5-ci səhifədə)

1918 Azərbaycan Ordusu - 100 2018

# Qələbə müjdəli səhərə doğru

(Əvvəli 4-cü səhifədə)



Aparıcılar Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1918-ci ildə yaradılan ordunun necə yaradılmasından, ordunun qurucularından söz açır, bu ordunun hüquqi varisi olan müasir Azərbaycan Respublikasının ordusundan, şəxsi heyətin yüksək döyüş və mənəvi-psixoloji hazırlığından, ordu quruculuğunun Heydər Əliyev mərhələsindən, İlham Əliyev mərhələsindən, son illərdə həyata keçirilən möhtəşəm islahatlardan, irimiqyaslı təlimlərdən, zabit və əsgərlərimizin beynəlxalq təlimlərdə iştirakından danışırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında ən güclü ordular sırasındadır" - kəlamı toplaşanlara qürurla, yubiley ovqatıyla bir daha yaşadılır

Aparıcılar heç zaman unudulmayacaq aprel zəfərindən, Azərbaycan Ordusunun gücündən, qüdrətindən, döyüş və qələbə əzmindən, ordu ilə xalqın birliyindən, ordunun xalqın, "Sənə inanırıq, ölkə rəhbəri, Sənə güvənirik, Vətən əsgəri!" - deyən xalqın ordunun dayağı olmasından, ... da danışdılar. Azərbaycan Ordusunun 2016-cı il aprel zəfəri Lələtəpə, Bayraqtəpə kimi mühüm əhəmiyyətli yüksəkliklərin azad edilməsi ilə nəticələndi. Bu tarixi qələbə, təbii ki, ədəbiyyat üçün mövzu olacaqdı. Oldu da. Lələtəpədə dalğalanan bayrağımızın qüruru "Lələtəpə fatehləri" şeirinin yaranmasının mənəvi stimulu oldu, möhtəşəm şeirə möhtəşəm mahnı bəstələndi. "Lələtəpə fatehləri" mahnısı aparıcıların dediklərini duyğusallıqla tamamladı.



İki tarixi hadisənin - iki yubileyin bir tədbirdə bu miqyasda qeyd olunması da reallığa söykənir: hər ikisi dövlətçiliklə bağlıdır, birində dövlət yaranıb (28 may 1918-ci il), biri dövlətçiliyi iflasdan xilas edib (15 iyun 1993-cü il). Biri 73 il fərqlə əvvəlkinin hüquqi-məntiqi davamı, sonrakı tarixlərin (15 iyun 1993-cü il - əbədiyyət) başlanlığıcıdır. Hər iki tarix haqqında səxavətlə, səmimiyyətlə danışıldı, səmimiyyətlə, sevgilərlə dinlənildi. Tarixi keçmişə sədaqət, ehtiram, sevgi bayramıydı "Milli Qurtuluşdan Zəfərə doğru" kütləvi vətənpərvərlik bayramı - vətənpərvərlərin bayramı...

Belə tədbirlərdə ssenariyə söykənən hər kəlməni - aparıcıların dediklərini, monoloqları, dialoqları ürəyinlə dinləməlisən, rejissura əsasında hər mizana ürəyinin gözüylə baxmalısan. Onda tədbirin - kütləvi vətənpərvərlik bayramının mahiyyətini bütün incə çalarlarıyla dərk edəcəksən, kəlmə-kəlmə, görüntü-görüntü düşüncələrinə hopduracaqsan...

Kütləvi vətənpərvərlik bayramı teatrlaşdırılmış, kinolaşdırılmış formatda keçirildiyindən ssenarinin (və rejissuranın) əhatəliyi, informasiyalığı diqqəti çəkir: iri ölçülü monitorda azərbaycançılıq ideologiyası, azərbaycançılıq məfkurəsi ilə yaşayan Ulu Öndərin Azərbaycan üçün misilsiz xidmətlərini bu sıradan ordu quruculuğunda əldə edilən nailiyyətləri əks etdirən kadrlar bayramın tarixi dəyəri kimi izlənilir; tarixdə heç nə unudulmur.

Ssenari də, rejissura da varislik, tarixlik baxımından dəyərləndirilməlidir. Zaman mütəlifdir: 1918-ci il və 1993-cü il. Mahiyyət eynidir: dövlət, dövlətçilik. Azərbaycanın dövlətçilik tarixinin iki dövrü bir məqamda Qazax rayon Mədəniyyət Mərkəzinin qarşısında qoşa yaşanılır: 100 il əvvəlin dövlətçilik cəfakeşlərindən Azərbaycan Xalq Cümhuriyyətinin Hərbiyyə naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov, Hərbiyyə nazirinin müavini, tam artilleriya generalı Əlağa Şıxlinski, Qafqaz İslam Ordusunun komandanı Nuru paşa, topoqraf general-mayor İbrahim ağa Vəkilov, general-mayor Süleyman Əfəndiyev, Azərbaycan Ordusunun ilk qurucularından olan general-mayor Cavad bəy Şıxlinski, qardaşı polkovnik Rüstəm bəy Şıxlinski 25 il əvvəl dövlətçiliyimizin qurtuluşunu təmin edən Qurtuluş gününün təntənəsinə gəlib. Bu gəliş tarixin tarixə ehtiramı kimi izlənilir (ssenari həm də bu baxımdan dəyərlidir). 100 il əvvəlin tarixi 25 il əvvəlin tarixinə məmnunluğunu, şükranlığını bildirir. Hər kəlmədə Vətən var, dövlət, dövlətçilik var (ssenari!), hər mizanda Vətənə, dövlətə, dövlətçiliyə sədaqətin nişanələri var (rejissura). Generallar qurucusu böyük tarixi şəxsiyyət Heydər Əliyev olan ordumuzun bugünkü səviyyəsindən, yüksək döyüş və mənəvi-psixoloji hazırlığından məmnunluğunu bildirir, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyiylə yaxın vaxtlarda torpaqlarımızın işğaldan azad ediləcəyinə inandıqlarını deyirlər; generalların dönməz inamı meydanı arzuladığımız səviyyədə ləngərləndirir. "Qoruyun Vətəni!" - deyir generallar. "Əzminizlə, iradənizlə, səngər sinənizlə qoruyun. Qoruyun və Ali Baş Komandanın əmriylə səngərlərimizi sərhədlərimizə köçürün!". Kəlmələr tarixin dünəninin bu gününə nəsihəti kimi səslənir, dinlənilir, kəlmə-kəlmə düşüncələrə hopur...

Hansı tədbirdə hansı mahnının təqdim edilməsini müəyyənləşdirmək də əhəmiyyətlidir.

Əməkdar artist Aybəniz Haşımovanın rəhbərlik etdiyi "Bülbüllər" qrupu ilə birgə ifa etdiyi "Haydı, oğlum, haydı, gəl" məzmunlu, düşündürücü mahnı tədbirin mahiyyətiylə incəliklə səsləşdi; Milli Qurtuluşdan zəfərə doğru gedənlərə torpağın harayı kimi dinlənilir. "Haydı, oğlum, haydı, gəl": Sən gəlincə yaralarım qaysaqlanmayacaq, sən gəlincə axar sularım durulmayacaq, sən gəlincə çiçəklərim ləçəklənməyəcək, sən gəlincə bulaqlarımın səsi açılmayacaq...". "Haydı oğlum, haydı, gəl" Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın, Füzulinin, Qubadlının, Cəbrayılın, Zəngilanın səsi, harayı kimi dinlənilir: gəl, oğlum, gəl! Gəl!...

Mahnı Milli Qurtuluşdan zəfərə doğru gedəcək əsgərlərin də, onları uğurlayacaq vətənpərvərlərin də duyğularını kükrətdi...

Xalq artisti Samir Cəfərovun ifasında "Azərbaycanım" mahnısı bütün iştirakçılar adından azərbaycançılıq məfkurəsinə sədaqət andı kimi səslənir. Möhtəşəm tədbirdə möhtəşəm mahnının möhtəşəm ifası dinləyənləri bir daha, daha əzəmətlə "Mən azərbaycanlıyam!" - qüruruna kökləyir...

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin təqdimatında ədəbi-bədii xoreoqrafik kompozisiya da maraqla izlənildi. Elçin Məmmədovun ifasında "And içirik!" - mahnısı "Milli Qurtuluşdan zəfərə doğru aparan yolun qələbə yolu olacağına and içirik!" - kimi səsləndi, belə dinlənildi. Nəqəratın iştirakçıların sayı qədərincə təkrarlandığına kimsə zərrəcə şübhə edə bilməzdi: kütləvi vətənpərvərlik



bayramının mahiyyətində bu andın işığını görmək çətin deyildi...

Nurşən Məmmədovun ifasında səslənən "Çağırış"ı tədbirin timsalında Vətənin çağırışı bilənlər nə qədər haqlıydı!..

Belə mükəmməl ssenari, belə mükəmməl rejissura düşüncələri misralaşdırmağa qadirmiş:

*Ali Baş Komandan*
*əmr verən gün*
*qətiyyət, cəsarət*
*döyüşəcəkdir,*
*Vətənə məhəbbət,*
*torpağa sevgi,*
*Dövlətə sədaqət*
*döyüşəcəkdir.*
*Nizami sırada*
*dayanan əsgər,*
*Döyüş bayrağınla*
*uğur üstəsən*
*Milli qurtuluşdan*
*zəfərə doğru.*
*Böyük Qələbənin*
*işığı düşür*
*Qələbə müjdəli*
*səhərə doğru!..*

Misraların mahiyyətini Günay Qasımovanın, Vüsal Ağayevin və Nurşən Məmmədovun ifasında "Zəfər marşı" tamamladı. Şair kəlamının (A.Qurbani) musiqi yozumu ürək-ürək gəzişir, düşüncələri onsuz da uzaq düşmədiyi Böyük Qələbəyə bayram ovqatıyla yönəltdi...

Aparıcılar Qazaxın əzəmət, vüqar simvolu olan Göyəzəni, Aveyi, duruluq, saflıq simvolu olan Damcılı bulağını xatırladır. Bu məzmunlu xatırlatma reallığı ifadə edən rəmzlərdi - qazaxlıların, Qazaxda xidmət edən hərbçilərin Vətən sevgisi Göyəzən, Avey əzəmətlidi, Damcılı saflığındadı; "Milli Qurtuluşdan Zəfərə doğru" kütləvi vətənpərvərlik bayramı həm də bu əzəmətin, vüqarın, saflığın bayramıdı.

Düşüncələrin səyyarəsinə dönən "Milli Qurtuluşdan Zəfərə doğru" kütləvi vətənpərvərlik bayramı geniş informasiyalığı ilə yaddaşlarda yaşayacaq. Bu yay günü budaq-budaq, yarpaq-yarpaq əsən yel də, ləçək-ləçək gülən gül də, tavar sazda "Sarıtel" də, avtomatın qundağını sıxan əl də,... belə deyirdi. Belə deyirdi yerin səsi, göyün səsi. Belə deyirdi bu bayramın aşıb-daşan, düzlər keçən, dağlar aşan, bayramlaşan təntənəsi!..

Dahi Səməd Vurğun "... mən tələsmirəm..." - deyirdi; tələsən zamandı - kütləvi vətənpərvərlik bayramını tarixləşdirməyə tələsir zaman. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini, Azərbaycan Ordusunun 100 illiyini, Qurtuluş Gününün 25 illiyini tarixləşdirdiyi kimi tarixləşdirəcək, yaşatdığı kimi yaşadacaq!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

AZƏRBAYCAN ORDUSU

1918 Azərbaycan Ordusu - 100 2018

# Bu gün Azərbaycan Ordusu öz inkişafının ən parlaq dövrünü yaşamaqdadır

Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi
general-leytenant Heydər PİRİYEV

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Bu sərəncam Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinin 100-cü ildönümü ilə bağlıdır.*

Ölkə Prezidentinin sərəncamına uyğun olaraq, Cümhuriyyət ili çərçivəsində həm də hərb tariximizdə şərəfli bir səhifə açmış Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun təşkilinə başlanmasının 100 illiyi bütün xalqımız tərəfindən böyük sevinclə qeyd edilməkdədir.

Bu tarixi gün münasibətilə doğma ordumuzun şəxsi heyətini, bugünkü mərasim iştirakçılarını ürəkdən təbrik edir və hazırda dünyanın ən güclü ordularından olan ordumuza Vətən və dövlət tərəfindən həvalə olunmuş vəzifələrin həllində daha böyük uğurlar arzu edirəm.

Bu günlərdə əsasının qoyulmasının 100 illiyini qeyd etdiyimiz Cümhuriyyət ordusu quruculuğu hərb tariximizdə tamamilə yeni bir mərhələni təşkil edir. Çünki bununla yeni bir dövlət sistemində müstəqil və nizami ordunun əsası qoyuldu, zamanın və dövrün ən qabaqcıl hərbi təcrübəsinə əsaslanmaqla güclü və qüdrətli bir ordunun formalaşdırılmasına nail olundu.

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasından sonra bu dövlətin hər bir vətəndaşı üçün millət və Vətən anlayışları daha konkret məzmun kəsb etdi və Cümhuriyyət ordusunun formalaşdırılmasında da bu anlayışlar aparıcı mənəvi-ideoloji xəttə çevrildi.

Dövrün siyasi, iqtisadi, mənəvi məhrumiyyətlərinə, hərbi sistemin və infrastrukturun olmamasına baxmayaraq, çoxlu sayda zabit və əsgərlərimiz Vətən və millət dəyərləri ətrafında toplaşaraq qısa bir zamanda çox güclü bir ordunun yaranmasına, tarix səhnəsinə qədəm qoymasına nail oldular. Bununla xalqımızın qəhrəmanlıq tarixinə yeni bir şərəfli səhifə yazıldı.

Cümhuriyyət ordusunun yaradılması, onun qısa zamandan sonra döyüşkən bir qüvvəyə çevrilməsi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin düzgün siyasətinin uğurlu nəticəsi idi. Cümhuriyyət hökumətinin rəhbərliyi Cümhuriyyət ordusunu müstəqil dövlətin mühüm atributu, müstəqilliyin müdafiəçisi kimi görürdülər. Bu məqamlar Cümhuriyyətin hərbi siyasətinin də mahiyyətini təşkil edirdi.

Ölkənin Nazirlər Şurasının sədri, bir müddət hərbi nazir vəzifəsini öz üzərinə götürmüş Fətəli xan Xoyski bildirirdi ki, gərək hər bir dövlət daima özünü müdafiə etmək üçün qüvvə hazırlasın. Gərək bizim həm xarici düşmənlərimizə, həm də istiqlalımıza hücum edənlərə qarşı mübarizə aparacaq bir qüvvəmiz olsun.

Belə bir ordunu qurmaq Azərbaycan üçün xeyli mürəkkəb olan hərbi-siyasi şəraitdə aparılmalı oldu. Hərbi Nazirliyin və Azərbaycan Ordusunun təşkilinə rəhbərliyi öz üzərinə götürmüş tam artilleriya generalı Səməd bəy Mehmandarov 1918-ci il noyabrın 7-də imzaladığı 1 nömrəli əmrində ordu quruculuğunun çətin şəraitdə aparılmalı olacağını qeyd edirdi.

Səməd bəy Mehmandarov həmin əmrində yazırdı: "Vəzifələrimin icrasına başlarkən mənim görməli olduğum o böyük işin bütün ciddiliyini, mürəkkəbliyini və çətinliyini yaxşı anlayıram. Ancaq bu iş görülməlidir və Hərbi Nazirliyin qarşısına çıxan bütün çətinlikləri birgə səmimi fəaliyyət və vəzifəyə təmiz münasibət bəsləndiyi halda aradan qaldırmaq mümkündür.

Hamını birgə, səmimi fəaliyyətə dəvət etməklə mən bütün səviyyələrdə olan rəislərin diqqətini qoşunlarda təlim və tərbiyəyə, onlarda möhkəm intizamın aşılanmasına, işə məsuliyyət və məhəbbət hisslərinin oyadılmasına, qanun-qaydaya riayət edilməsinə və nəhayət, tabeçilikdə olanlara qayğıkeş və mehriban münasibət göstərilməsinə çağırıram".

Bütün çətinliklərə baxmayaraq, ordu quruculuğuna cəlb edilmiş təcrübəli generalların səyləri nəticəsində Azərbaycanın hərb tarixinə son dərəcə qiymətli səhifələr yazıldı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu əzəmətli işə qiymət verərkən belə deyirdi: "1918-ci ildə Xalq Cümhuriyyəti, Azərbaycanın ilk demokratik hökuməti dövlət quruculuğu işini çox mürəkkəb və çətin bir dövrdə apardığı zaman Silahlı Qüvvələrin yaranmasına və ordu quruculuğuna xüsusi əhəmiyyət vermiş, qayğı göstərmişdir. Xalq Cümhuriyyətinin ikiillik tarixini bu gün vərəqləyərkən ordu quruculuğu sahəsində nə qədər dəyərli işlər gördüyü, doğrudan da, böyük hörmət hissi doğurur".

Cümhuriyyətin ordu quruculuğu sahəsinə bu böyük ehtiramı doğuran başlıca səbəblərdən biri, sözsüz ki, bu ordunu quranların, onun zabit və komandir heyətinin fədakar xidmətləri idi. Milli təfəkkür və müstəqillik istəyi nəticəsində yeni bir milli ordunun formalaşdırılmasına əsaslı zəmin yarandı.

Səməd bəy Mehmandarovun və bütünlükdə Cümhuriyyətin Hərbi Nazirliyinin rəhbərliyinin hərb tariximizdə dəyərli xidmətlərindən biri onda idi ki, onlar öz ətrafına Vətənin və millətin maraqlarını digər bütün maraqlardan üstün tutan generalları və zabitləri toplayaraq onların gücünü müstəqil Azərbaycan üçün gərəkli olan milli ordunun formalaşmasına səfərbər edə bildilər.



Cümhuriyyət ordusunun yaradılmasında çox böyük rolu olan general Əlağa Şıxlinski də hərbi nazir adından imzaladığı əmrlərdən birində yazırdı: "Azərbaycanlılar həmişəlik yadda saxlamalıdırlar ki, doğma ordu xeyriyyə evi deyildir və ondan ötrü mövcud deyil ki, hər bir azərbaycanlı orada özünə xeyirli olan yeri tutsun. O, Vətənin dayağıdır və ora ölkənin ən yaxşı qüvvələri daxil olmalıdır".

Belə qüvvələrin əsasını təşkil edən tam artilleriya generalları Səməd bəy Mehmandarovun və Əlağa Şıxlinskinin, general-leytenant Məmməd bəy Sulkeviçin, general-mayor Həbib bəy Səlimovun, general-mayor Süleyman bəy Əfəndiyevin, general-mayor Cavad bəy Şıxlinskinin, general-mayor Həmid bəy Qaytabaşının, general-mayor Məmməd Mirzə Qacarın və digərlərinin adları qızıl hərflərlə hərb tariximizə yazılmışdır.

Məhz belə generalların və zabitlərin rəhbərliyi altında milli dəyərlərə əsaslanan və Azərbaycanın müstəqilliyinə sədaqətli olan yeni bir ordu formalaşdırıldı, bu ordunun milli kadrlarının hazırlanmasında ciddi bir baza yaradıldı və bu bazadan səmərəli şəkildə istifadə edildi, Azərbaycanda yeni hərbi infrastrukturanın əsası qoyuldu, çağırış və səfərbərlik sistemi quruldu.

Cümhuriyyət ordusu quruculuğunun uğurunu şərtləndirən amillərdən biri də ordu ilə xalq birliyinin yaradılması, xalqın milli-mənəvi dəyərlərinin ordu daxilinə gətirilməsi idi.

Səməd bəy Mehmandarov hərbi nazir vəzifəsinə təyin edilən gün Azərbaycan xalqına müraciət etdi, bütün xalqı ölkə maraqlarının müdafiəsi üçün yaradılmış ordunun qurulmasında yaxından iştirak etməyə çağırdı. S.Mehmandarov şübhə etmirdi ki, xalqın doğma və yaradıcı münasibəti olmasa, Cümhuriyyət ordusunu təşkil etmək asan olmayacaqdır.

Xalq-ordu, ordu-dövlət münasibətlərinin düzgün qurulması və əlaqələndirilməsi Cümhuriyyətin ordu quruculuğunun uğurunun əsas amilidir və bu ordu Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünün qorunmasında xalqın və dövlətin ona bağladığı ümidləri doğrulda bildi. Cümhuriyyət ordusunun qoruduğu sərhədlər müasir Azərbaycan dövlətinin də sərhədlərinin əsasını təşkil edir.

Cümhuriyyət ordusundan bizə miras qalan yalnız sərhədlərimiz deyildir. Azərbaycanın müstəqilliyinə sədaqət, tapşırılan vəzifələrin icrasına fədakar münasibət, əsgər və zabit zəhmətinə yüksək ehtiram, mənəvi saflıq, sonsuz vətənpərvərlik Cümhuriyyət ordusunun bu gün də aktual olan dəyərləridir.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, bu dövlətin ordusundan miras qalan keyfiyyətlər milli hərbi ənənəyə çevrildi. Sovet hakimiyyəti illərində azərbaycanlılar arasında hərb işinin tarixini təhlil edərkən ulu öndər Heydər Əliyev də məhz bu keyfiyyətlərin bir xətt kimi davam etdiyini qeyd edirdi. Ulu Öndərin fikrincə, məhz bu ənənələrin yaradıcı şəkildə inkişaf etdirilməsi Sovet hakimiyyəti illərində, Böyük Vətən müharibəsi illərində azərbaycanlı hərbçilər tərəfindən sonsuz sayda qəhrəmanlıq nümunələrinin göstərilməsinə yol açmışdı.

Cümhuriyyət ordusu quruculuğunun tarixi təcrübəsinə yüksək qiymət verilməsinin nəticəsi idi ki, ulu öndər Heydər Əliyevin qərarı ilə Cümhuriyyət ordusu ilə müasir ordumuz arasında bir tarixi və mənəvi bağlılıq yaradıldı.

Böyük tarixi şəxsiyyətin 22 may 1998-ci il tarixli fərmanı ilə Azərbaycan Ordusunun yaranma tarixi 1918-ci il iyunun 26-dan - Əlahiddə Azərbaycan korpusunun təşkil edildiyi gündən götürüldü.

Ulu öndər Heydər Əliyev həm də Cümhuriyyət ordusu ilə başlanan hərb tariximizi, ordu quruculuğu təcrübəsini yeni bir səviyyəyə qaldırdı, müasir, müstəqil ordumuzun əsasını qoydu, Azərbaycanın müstəqilliyini qorumağa qadir olan bir ordunun memarına çevrildi. Müasir Azərbaycan Ordusunun formalaşmasının başlanğıcı kimi qəbul edilən 1993-cü il noyabrın 2-də Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına müraciətində də Cümhuriyyət ordusunun ən yaxşı təcrübəsinin izlərini görmək mümkündür.

Ordu-dövlət münasibətlərinin, xalqın gücünün ordu quruculuğuna səfərbər olunmasının, dünya təcrübəsinə istinad edilməsinin yeni şəraitdə inkişafının, onların tətbiqi mexanizminin müəyyənləşdirilməsi ordu quruculuğu sahəsində tarixi təcrübə ilə mövcud reallıqların Heydər Əliyev tərəfindən məharətlə əlaqələndirilməsi Azərbaycanda keyfiyyətcə yeni bir ordunun meydana gəlməsinə yol açdı.

Cümhuriyyət ordusundan başlanan tarixi təcrübəni dəqiqliklə dəyərləndirməklə Heydər Əliyev tərəfindən Azərbaycanda ordu quruculuğunun mükəmməl bir siyasəti hazırlanmış və onun uğurlu tətbiqi nəticəsində tarixi ənənələrə, Azərbaycan xalqının istəyinə və ehtiramına layiq olan bir ordu formalaşdırılmışdır.

Ulu öndər Heydər Əliyev tərəfindən ordu quruculuğu sahəsində müəyyənləşdirilmiş siyasətin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yeni reallıqlara və imkanlara uyğun olaraq yaradıcı şəkildə həyata keçirilməsi Azərbaycan Ordusunu keyfiyyətcə daha yeni bir səviyyəyə qaldırmışdır.

Respublika Prezidentinin gündəlik qayğısı nəticəsində son illər ərzində ordunun texniki təchizatında çox güclü bir sıçrayış olmuş, ordunun maddi-texniki təminatı ən yüksək səviyyədə həll edilmişdir. Hərbi büdcənin ildənilə yaxşılaşdırılması ordunun infrastrukturunun, yeni-yeni təlim mərkəzlərinin, hərbi şəhərciklərin, sosial obyektlərin yaradılmasına imkan vermişdir.

Döyüş hazırlığı planlarının daim təkmilləşdirilməsi, bu prosesdə dünya təcrübəsinə diqqətin artırılması, ardıcıllığın saxlanması Azərbaycan Ordusunun döyüş qabiliyyətini də xeyli artırmışdır. Qeyd edildiyi kimi, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer tutmaqdadır və bu nailiyyətin əldə edilməsi ordu quruculuğuna respublika rəhbərliyinin gündəlik diqqətinin və qayğısının nəticəsidir.

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yeni və daha yüksək səviyyəyə qalxmasını ordu hissələrinin 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin cəbhə xəttində təxribatlarının qarşısının alınmasında göstərdiyi nəticələr də bir daha sübut etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu nəticələri yüksək qiymətləndirmiş və onları Azərbaycan Ordusunun tarixində parlaq səhifə kimi dəyərləndirmişdir.

Bu gün Azərbaycan Ordusu öz inkişafının ən parlaq dövrünü yaşamaqdadır. Şübhə etmirik ki, Cümhuriyyət ordusunun ən yaxşı ənənələrini qoruyub saxlamaqla güclü bir orduya çevrilmiş Azərbaycan Ordusu ölkənin Silahlı Qüvvələrinin Ali Baş Komandanının bütün əmrlərini uğurla yerinə yetirməyə qadirdir.

# Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş elmi-praktiki konfrans keçirildi

*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş "Azərbaycanda ordu quruculuğu və hərb elmi" mövzusunda elmi-praktiki konfrans keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev bildirdi ki, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. "Bu il Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun əsasının qoyulmasının 100-cü ili tamam olur. Cümhuriyyət ordusunun yaradılması, onun qısa zamandan sonra döyüşkən bir qüvvəyə çevrilməsi hər şeydən əvvəl Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin düzgün siyasətinin uğurlu nəticəsi idi. Cümhuriyyət hökumətinin rəhbərliyi Cümhuriyyət ordusunu müstəqil dövlətin mühüm atributu, müstəqilliyin müdafiəçisi kimi görürdü. Bu məqamlar Cümhuriyyətin hərbi siyasətinin də mahiyyətini təşkil edirdi".

Hərbi Akademiyanın rəisi onu da qeyd etdi ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Cümhuriyyət ordusu ilə başlanan hərb tariximizi, ordu quruculuğu təcrübəsini yeni bir səviyyəyə qaldırdı, müasir, müstəqil ordumuzun əsasını qoydu, Azərbaycanın müstəqilliyini qorumağa qadir olan bir ordunun memarına çevrildi: "Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer tutmaqdadır və bu nailiyyətin əldə edilməsi ordu quruculuğuna respublika rəhbərliyinin gündəlik diqqətinin və qayğısının nəticəsidir. Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yeni və daha yüksək səviyyəyə qalxması-nı 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin cəbhə xəttindəki təxribatlarının qarşısının alınması zamanı göstərdiyi nəticələr bir daha sübut etdi".

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri, hüquq elmləri doktoru, professor İsaxan Vəliyev və Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm şöbəsinin dosenti, tarix elmləri doktoru Mehman Süleymanov qeyd etdilər ki, Cümhuriyyət dövründə yaranan ordu Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xalqın və dövlətin ona bağladığı ümidləri doğrulda bilib.

Daha sonra Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr edilmiş kitablar tədbir iştirakçılarına təqdim edildi.

Konfransın sonunda Silahlı Qüvvələrin Hərbi Akademiyasının əməliyyat-taktiki fakültəsinin məzunları adından Silahlı Qüvvələrin Hərbi Akademiyasına xatirə hədiyyəsi verildi.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Qəhrəmanın məzarı ziyarət edilib



Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 19-da torpaqlarımızın müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksəlməsinin ildönümündə Müdafiə Nazirliyinin bir qrup nümayəndəsi II Fəxri xiyabanda Milli Qəhrəmanın qəbrini ziyarət edib, məzarı üstünə gül dəstələri qoyublar.

Mərasimdə Müdafiə Nazirliyinin idarə rəisi general-mayor Rasim Əliyev çıxış edərək Azərbaycanın tarixən öz qəhrəmanları ilə seçildiyini, anım günü qeyd edilən Mübariz İbrahimovun da qanında-canında qəhrəmanlıq və mübarizlik hissinin yüksək olduğunu bildirib. Öz şücaəti ilə ömrünün gənclik çağında tarixə və gənc nəslin qəlbinə adını yazmış qəhrəmanın ölməzlik qazandığı, ölçüyəgəlməz Vətən sevgisinin onu şəhidlik zirvəsinə ucaltdığını diqqətə çatdırıb. Bu igid gizirin göstərdiyi rəşadətin ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək dəyərləndirildiyini, ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında xidmətlərinə görə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldüyünü vurğulayıb.

Tədbirdə Azərbaycanın qəhrəman oğlu Mübariz İbrahimovun igidliyindən danışılıb, həyat yoluna nəzər salınıb, göstərdiyi şücaət və qəhrəmanlıqdan bəhs edilib.

Sonra Vətənimizin azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin xatirələri yad edilib, məzarları üzərinə tər güllər düzülüb.

**"Azərbaycan Ordusu"**

# Hərbi birliyin təlimləri uğurla başa çatıb



*Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, cəbhəboyu zonada yerləşən hərbi birliyin birləşmə və hissələrinin qərargah və bölmələrinin cəlb edilməsi ilə keçirilən təlim başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərə 2.000 nəfərədək şəxsi heyət, 60-dək tank və digər zirehli texnika, 250-dək təkərli və xüsusi texnika, 70-dək müxtəlif çaplı artilleriya qurğusu və minaatan cəlb olunub.

Qoşunların hazırlığının yoxlanılması məqsədilə birləşmə və hissələr "Həyəcan" siqnalı ilə qaldırılıb və cəmləşmə rayonlarına çıxarılaraq tam döyüşə hazırolma dərəcəsinə gətirilib.

Təlimin əməliyyat şəraitinə uyğun olaraq, qoşunlar şərti düşmənin hücumunun qarşısının alınması, onun atəşlə təlafata uğradılması və müdafiənin əlverişli hədlər üzrə bərpa olunması tapşırıqlarını yerinə yetiriblər.

Təlimlərə cəlb olunan şəxsi heyət qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirib.

# Xankəndi üzərində guya Ermənistana məxsus "qırıcı" təyyarələrin uçuşlar keçirməsi düşmənin növbəti informasiya avantürasıdır

Bu gün bəzi yerli elektron informasiya vasitələri guya Xankəndi üzərində Ermənistana məxsus "qırıcı" təyyarələrin uçuşlar keçirməsi ilə bağlı erməni mətbuatının yaydığı xəbəri tirajlayıb.

Azərbaycanın Hava Hücumundan Müdafiə Qoşunlarının radiolokasiya stansiyaları ölkəmizin hava məkanını, o cümlədən Xocalı aeroportunu daim nəzarətdə saxlayır, hərəkət edən bütün aviasiya vasitələri izlənilir və istənilən uçuşların marşrutları barədə məlumatlar dərhal avtomatik rejimdə HHQ-nin Komanda Məntəqəsinə ötürülür.

İyunun 16-sı və 17-də xüsusi vasitələrlə çəkilmiş Xocalı aeroportunun foto və video görüntülərində hər hansı bir qırıcı təyyarənin olması müşahidə edilmir. Qalxma-enmə zolağı yaxınlığında köhnə istehsal olan, uzun müddət uçuşlara cəlb edilmədən orada saxlanılan 1 ədəd L-39 təlim, 2 ədəd Yak-52 təlim-məşq, 1 ədəd CH-701 yüngül gəzinti təyyarələri və 1 ədəd çoxməqsədli Mi-8 helikopteri müşahidə olunur.

Bu kimi təxribat xarakterli məlumatlar düşmən tərəfindən məqsədyönlü surətdə yayılmaqla cəbhə xəttində vəziyyəti gərginləşdirməyə yönəlib və yerli kütləvi informasiya vasitələrinin Ermənistanın belə informasiya avantüralarına reaksiya verməmələrini xahiş edirik.

AZƏRBAYCAN ORDUSU

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır

(Əvvəli 1-ci səhifədə)

Bu addım xalqımızın dövlətçilik tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük xidmətlərindən biri kimi tarixləşdi. Gənc Demokratik Cümhuriyyətin yaradıcıları milli dövlətçiliyimizi qorumaq, ölkəni xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün özünün silahlı qüvvələrini yaratmaqla, milli dövlətçiliyimiz yolunda ölçüyəgəlməz, qarşısıalınmaz bir prosesə başladılar.

Xalq Cümhuriyyətinin devrilməsi nəticəsində ordu quruculuğu prosesi müəyyən bir zaman kəsiyində yarımçıq qaldı. Lakin 1969-cu ildə Azərbaycanın rəhbəri seçilən ümummilli lider Heydər Əliyev bu prosesin qarşısıalınmaz olduğunu bir daha sübut etdi. Ulu öndər Heydər Əliyevin respublikaya rəhbər seçilməsi ilə hərbi kadr sahəsində atdığı addımlar, Cəmşid Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının qoyulması, azərbaycanlıların hərbi məktəblərə daxil olmasının təmin edilməsi, milli zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi Azərbaycanın hərb tarixində yeni bir mərhələnin əsasını qoydu.

Ümummilli Lider tərəfindən ordu quruculuğu sahəsində milli maraqlarımızın qorunaraq, inkişaf etdirilməsi istiqamətində atılan tarixi addımlar sonradan müstəqil Azərbaycanda mərkəzləşdirilmiş nizami ordunun yaranmasına təkan oldu.

Ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı bütün sahələrdə, o cümlədən ordu quruculuğu istiqamətində aparılan siyasətin davam etdirilməsinə şərait yaratdı. Ulu Öndərin vahid komandanlığın təmin edilməsi sahəsində gördüyü məqsədyönlü tədbirlər nizami ordunun formalaşmasına səbəb olmaqla yanaşı, Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə də gətirib çıxartdı. Nəticədə mərkəzləşmiş maddi-texniki təminat işində uğurlu addımlar atıldı, müxtəlif qoşun növlərinin, ayrı-ayrı hərbi hissələrin təminatı həyata keçirilməklə formalaşması başa çatdırıldı, fərarilik hallarının qarşısı alındı, orduya çağırış işi təkmilləşdirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlət və ordu quruculuğu istiqamətində taleyüklü addımlar atıldı və Azərbaycan Ordusu elmi-nəzəri əsaslar üzərində qurulmağa başladı. Dahi rəhbər Heydər Əliyev güclü və intizamlı ordunun yaradılmasının, həm də yüksək ixtisaslı milli zabit



kadrların mövcudluğundan asılı olduğunu nəzərə alaraq Hərbi Akademiyanı yaratdı, Ali Hərbi Dənizçilik və Ali Hərbi Təyyarəçilik Məktəblərini formalaşdırdı.

Vətənimizin qorunmasının, işğal altında olan torpaqlarımızın azad olunmasının başlıca amilini ordumuzun daha da möhkəmləndirilməsində görən Ulu Öndər tez-tez səngərlərdə oldu, əsgər və zabitlərlə şəxsən görüşdü, ölkənin müdafiə qüdrətini və hərbi potensialını artırmaq üçün ciddi addımlar atdı.

Ulu öndər Heydər Əliyevin qətiyyətinin və böyük sərkərdəlik məharətinin nəticəsi idi ki, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Horadiz əməliyyatı baş tutdu və 21 min hektar ərazi - Füzuli rayonunun 20 Arazboyu kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi.

Bütün bunlar sübut edir ki, bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqəti çəkir. Prezidentimizin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycan möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordusu ilə fəxr edir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərləri ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən amillər sırasındadır. Ön xətdə xidmət edən şəxsi heyətə mübarizə əzmi aşılamaqla Ali Baş Komandan bir daha orduya diqqət və qayğısını əsirgəmədiyini nümayiş etdirir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, erməni işğalının və müharibə vəziyyətinin davam etdiyini nəzərə alaraq bizim qarşımızda duran əsas vəzifə hərbi kadrların peşəkarlıq səviyyəsini artırmaq, müdafiə potensialını möhkəmləndirmək, ordumuzun gücünü və hərbi qüdrətini daima yüksəltməkdir. Bu isə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsi üçün başlıca şərtdir.

Müasir ordu quruculuğunu xarakterizə edən, milli ordumuzun möhkəmlənməsinə geniş imkanlar yaradan əsas amil dinamik iqtisadi inkişaf və ölkəmizin iqtisadi qüdrətinin artmasıdır. İqtisadi inkişaf ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına və Azərbaycanda hərbi-sənaye potensialının gücləndirilməsinə geniş imkanlar yaradır.

Ali Baş Komandan İlham Əliyevin apardığı ardıcıl siyasətin, diqqət və qayğısının məntiqi nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-sursat, döyüş texnikası, onların keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır və ordumuz dünyanın aparıcı 50 ordusu sırasındadır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Heydər Əliyev Mərkəzində təşkil edilən rəsmi qəbulda çıxış edən Prezident İlham Əliyev qazanılan uğuru müstəqillik dövrünün ən böyük nailiyyətlərindən biri hesab etdi: "1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə, yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi. Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir". Prezident qeyd etdi ki, bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir: "Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər".

Bəli, 100 yaşlı Azərbaycan dövləti və Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin fəaliyyəti nəticəsində fəxr ediləsi, qürur duyulası bir səviyyədədi və həyatının ikinci yüzilliyinə ciddi uğurlarla qədəm qoyur. Bu uğurlar dövlətimiz və dövlətçiliyimiz naminə görülən işlərin davamı, gələcək nailiyyətlərin isə başlanğıcıdır.

Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibəti ilə keçiriləcək parad isə qazanılan uğurların təsdiqi olacaq. Bu paraddan sonra müasir Azərbaycan Ordusunun indiki vəziyyətini, döyüş qabiliyyətini daha aydın təsəvvür etmək mümkün olacaq. Böyük iqtisadi və siyasi əhəmiyyət kəsb edən bu parad sübut edəcək ki, Azərbaycan Ordusu güclüdür, qüdrətlidir, torpaqlarını qorumağa və işğaldan azad etməyə qadirdir. Ən əsası sübut edəcək ki, qüdrətli ordusu olan ölkə məğlubiyyətlə barışmayacaq. Tezliklə qələbələri sıralayacaq və növbəti paradın işğaldan azad edilmiş Qarabağda keçirilməsinə nail olacaq!

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Müdafiə naziri Raket və Artilleriya Qoşunlarının cəbhə bölgəsində yerləşən hərbi hissəsinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun hərbi hissələrində tikinti-quruculuq işləri davam etdirilir.

İyunun 19-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhə bölgəsində yeni inşa edilən Raket və Artilleriya Qoşunlarının hərbi hissəsinin açılışında iştirak edərək ərazidəki qərargah, döyüş texnikaları üçün saxlanclar, əsgər yataqxanası, yeməkxana, sıra meydanı və digər obyektlərlə tanış olub.

Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu tapşırıqları bir daha xatırladan Müdafiə naziri ordumuza göstərilən diqqət və qayğının nəticəsi olaraq əldə edilən uğurları da xüsusi vurğulayıb.

General-polkovnik Zakir Həsənov Raket və Artilleriya Qoşunlarının döyüşə hazırlıq səviyyəsinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

Sonda şəxsi heyətlə birlikdə nahar edilib.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***21 iyun 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 125 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şuraabad, Qaraqaşlı, Sarıcalı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 431
Nüsxə 3525